# Fransaya daha bir zərbə

## Bakı Parisin agentura şəbəkəsini ifşa edərək onu gözdən saldı

**Azərbaycan xüsusi xidmət orqanlarının yüksək peşəkarlıqla həyata keçirdikləri əməliyyatlar nəticəsində ölkəmizin ərazisində Fransanın agentura şəbəkəsi ifşa edilib. Fransanın casus şəbəkəsinin, eləcə də Ukrayna, Moldova, Gürcüstan, Şərqi Avropa, Yaxın Şərq və Mərkəzi Asiyanın bir sıra ölkələrində müxtəlif əməliyyatlarda iştirak etməsi faktları da aşkar olunub.**

Uğurla aparılan əməliyyat sayəsində rəsmi Parisin Azərbaycanda, həmçinin qeyd etdiyimiz digər ölkələrdə daxili sabitliyi pozmaq, dövlətə təhlükə yaratmaq planları puça çıxarılıb. Azərbaycan xüsusi xidmət orqanlarının əməkdaşları tərəfindən Fransa casus şəbəkəsi zərərsizləşdirilib.

Rəsmi Parisin əvvəllər də anti-Azərbaycan mövqeyi və bu istiqamətdə xüsusi fəallığı bütün dünyaya məlum idi. Fransa keçmiş Minsk qrupunun həmsədr ölkəsi kimi, Ermənistanla Azərbaycan arasında sülh prosesinə nəinki dəstək vermədi, əksinə, iyirmi beş il ərzində bütün fəaliyyətini ikili siyasət üzərində quraraq ölkəmizə qarşı qərəzli, məkrli mövqe tutaraq həyata keçirdi. Rəsmi Paris Ermənistanın yanında olduğunu birmənalı şəkildə ifadə edir, separatizmi açıq-aydın dəstəkləyirdi.

Təəssüf ki, tarixi müstəmləkəçilik siyasəti ilə ləkələnmiş olan Fransa bu gün də işğalçı Ermənistana qol-qanad verməkdə davam edir. Cənubi Qafqazda sülhə, sabitliyə nail olmaq üçün geniş şərait yaranması rəsmi Parisi çox narahat edir. Öz məkrli planları və əməlləri ilə sabitliyi pozmağa cəhd göstərir. Fransanı bu regionun aqibəti qətiyyən maraqlandırmır. Çünki münaqişə ocağına çevirməyə səy göstərdiyi Cənubi Qafqaz da əsrlərdir müstəmləkəsi altında saxladığı, sərvətlərini taladığı, əhalisinə faciələr yaşatdığı ölkələr kimi ona yaddır.

Fransa hər zaman yalnız öz maraqlarına uyğun siyasət yürüdüb. Bu gün də harada sülhə çağırış, demokratiya varsa, orada rəsmi Parisin adını, fəaliyyətini görmürük. Uzun illər əvvəl işğalçı Ermənistanı müttəfiq seçməsinin əsas səbəblərindən biri də bu olmuşdu. Rəsmi İrəvanın timsalında Cənubi Qafqazda özünə tərəfdaş tapmışdı. Odur ki, Fransa iyirmi beş il müddətində vasitəçilik missiyasını layiqincə yerinə yetirməmiş, keçmiş Qarabağ münaqişəsinin həllinə çalışmamışdı. Göstərdiyi bütün səylər Azərbaycan ərazilərinin Ermənistanın işğalında qalmasına hesablanmışdı.

2020-ci ilin payızında, 44 günlük Vətən müharibəsində ədalət bərpa olundu, Azərbaycan öz əzəli torpaqlarını Ermənistanın işğalından azad etdi. Ancaq bu böyük Zəfərdən sonra da işğalçı dövlət Azərbaycanın təbii sərvətlərini talamaq, daşıyıb aparmaq niyyətindən əl çəkmədi. Bu ilin sentyabrında həyata keçirilən lokal xarakterli antiterror əməliyyatları nəticəsində Azərbaycan öz suverenliyini tam bərpa etdi. Daha işğalçılar, soyğunçular qanunsuz yollarla məkrli məqsədlərini həyata keçirmək üçün ərazilərimizə ayaq basa bilmirlər. Artıq bölgədə yeni reallıqlar yaranıb. Rəsmi Paris bununla barışmaq istəmir. Odur ki, təcavüzkar Ermənistana silah-sursat verir, Avropa Parlamentinin vasitəsi ilə fitnə-fəsadlar törədir, ölkəmizə qarşı qərəzli qətnamələr qəbul etdirir. Lakin özü də yaxşı bilir ki, bütün məkrli əməlləri hədərdir. Azərbaycan suverenliyinə nail olub. Ermənistan rəsmiləri də həqiqəti etiraf edərək uzun illər işğalda saxladıqları, müzəffər ordumuzun azad etdiyi torpaqların Azərbaycan dövlətinin əraziləri olduğunu deyiblər. Demokratiyaya qənim kəsilən Fransa isə Cənubi Qafqazdan birdəfəlik qovulsa da, aşkar və gizli həmlələrindən əl çəkməyib.

Azərbaycan dövləti Vətən müharibəsi, həmçinin suverenliyimizin bərpasına qədərki dövrdə yalnız torpaqlarını işğal etmiş, ərazilərində faciələr, soyqırımları, mina terrorları törətmiş təcavüzkar ermənilərə, işğalçı Ermənistanın silahlı qüvvələrinə qarşı mübarizə aparmadı. Ölkəmizə xarici təhlükələr də çox idi. Azərbaycanın Dövlət Təhlükəsizliyi Xidməti bütün təhdidlərin qarşısını peşəkarlıqla aldı. Milli təhlükəsizliyimizin diqqət və qətiyyətlə qorunmasını davam etdirdi. Fransanın casus şəbəkəsinin ifşa olunması ilə buna bir daha əmin olduq.

Dövlətimizə qarşı düşmən mövqeyində dayananlara isə dünyanın aparıcı xüsusi xidmət orqanları arasında yer tutan Fransa xüsusi xidmət orqanlarının rezidentura şəbəkəsini ölkəmizin təhlükəsizlik orqanları tərəfindən peşəkarlıqla üzə çıxarılması xəbərdarlıq oldu. Emmanuel Makron tələm-tələsik Fransa Xarici Təhlükəsizlik Baş İdarəsinin (DGSE) rəisi Bernar Emyeni vəzifəsindən azad etdi.

Ölkəsinin daxilində sabitliyi qoruya bilməyən Fransa rəhbərliyinin xaricdə də demokratiya düşməni olduğu Qərb mətbuatında yayılan məlumatlar arasında yer alıb.

Agentura şəbəkəsinin Azərbaycan xüsusi xidmət orqanlarının yüksək peşəkarlıqla həyata keçirdikləri əməliyyatlar nəticəsində ifşa edilməsi Fransanın dünyadakı imicinə böyük zərbə vurdu.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 24 dekabr, № 282.- S.19.